**Azərbaycan Dövlət İqtisad Universiteti**

**«Beynəlxalq İqtisadi Münasibətlər» kafedrası**

# DÜNYA İQTİSADİYYATI



**i.e.d., prof. Hacızadə Elşən Mahmud olğu**

**BAKI - 2011**

**Qlobal İnkişaf problemlərinin mahiyyəti, konseptual əsasları və ümumi xarakteristikası**

# Mövzunun planı



1. *«Qlobal» problem termininin etimologiyası.*
2. *Qlobal əksliklər və ziddiyyətlərin vəhdəti: sivilizasiyanın sonudurmu?*
3. *Qlobal inkişaf problemlərinin təsnifatı.*
4. *Qlobal problemlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı bağlılığı.*
5. *Qlobal inkişaf problemlərinin həlli imkanları.*

# Qloballaşma

***Qlobal*** (fransızca - *qlobal* - ümumi, latınca - *qlobus* - globus - kürə)

***«Qloballaşma»*** - dünyalaşma - kürəsəlləşmə

***«Qloballaşma»*** anlayışının elmi ədəbiyyatlarda ilk dəfə 1967-ci ildə, XX əsrin ikinci yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah üçün istifadə olunduğu qeyd edilir.



Teodar Levitt

***«Qloballaşma»*** termin kimi ilk dəfə 1983-cü ildə ABŞ iqtisadçısı Teodar Levitt (*1925-2006*) tərəfindən bazarların birləşməsinin qiymətləndirilməsi kontekstində işlədilmişdir.



Roland Robertson

***«Qloballaşma»*** anlayışının akademik status alaraq geniş yayılmasında ingilis sosioloqu Roland Robertson (*1927*) xüsusi rol oynamışdır

# Qloballaşma



***Qloballaşma*** - beynəlxalq əhəmiyyətli müxtəlif siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı amillərin ayrı-ayrı ölkələrin sosial varlığına hərtərəfli artan təsir prosesidir.

***Qloballaşma*** - ümumdünya siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı inteqrasiya və unifikasiya prosesidir.

***Qloballaşmanın*** başlıca nəticəsi beynəlxalq əmək bölgüsü, kapitalın, insan və istehsal resurslarının planet miqyasında miqrasiyası, qanunvericiliyin, iqtisadi və texnoloji proseslərin standartlaşması və ayrı-ayrı ölkələrin mədəniyyətlərinin yaxınlaşması və birləşməsidir.

***Qloballaşma*** sistem xarakterli olan obyektiv proses kimi cəmiyyət həyatının bütün sferalarını əhatə edir.

***Qloballaşma*** nəticəsində ümumi dövlətlər qrupu problemləri çoxalır, inteqrasiya subyektlərinin sayı və tipi genişlənir, dünyanın onlardan asılılığı artır və bununla da sıx əlaqəlilik də əldə edilir.



# Qloballaşma

*Qloballaşma* nəticəsində intellekt, bilik, texnologiya çox mühüm iqtisadi aktivə çevrilir.

*Qloballaşma* kompüterlərlə telekommunikasiya xətlərinin birləşməsi bazasında baş verən informasiya inqilabı bəşəri həyatı köklü dərəcədə yenidən qurur.

*Qloballaşma* zamanı sıxır, sərhədləri açır, kürrüyi ərzin bütün nöqtələri ilə rabitə yaradır, insanlar «real vaxt rejimində» bir-biri ilə ünsiyyət qurur.

*Qloballaşma* fərdi dünya vətəndaşına çevirir.

# Dünyalaşma - Qloballaşma



Təsərrüfat həyatının tarixi beynəlmiləlləşməsi mübadilə sferasında baş vermiş və milli təsərrüfatların beynəlmiləlləşməsi ilk növbədə beynəlxalq bazarların inkişafı ilə bağlı olmuşdur.

Mübadilə ticarətinin inkişafı lokal beynəlxalq bazarlara istiqamət almış, sənaye inqilabları zamanında isə sahələrarası lokal ticarət mərkəzləri vahid dünya bazarına çevrilmişlər.

.

# Qloballaşmanın

## hərəkətverici gücləri və amilləri



**Qloballaşmanın hərəkətverici gücləri:**

- ETT-nin yeni dalğası;
- TMK-ların fəaliyyəti;
- internetin genişlənməsi;
- beynəlxalq iqtisadi təşkilatların fəaliyyəti;
- Qlobal problemlərin çoxalması və genişlənməsi.

**Qloballaşmanın hərəkətverici amillərini müqayisəli üstünlüklərin daimi axtarışı, istehsalın delokallaşması, əmək bölgüsünün yeni kombinasiyaları və sair bu kimi alətlərlə xərclərin minimumlaşdırılması əhatə edir.**

# Qloballaşmanın *ziddiyyətləri*

- ***Qloballaşmanın*** **hər bir hərəkətverici gücü özü-özlüyündə ziddiyyətlidir və ümumi birləşməni əldə etməyə qadir deyildir.**
- **Qlobal və milli (*fərdi*) ziddiyyətlər ölkələrin milli iqtisadi xüsusiyyətlərinin silinməsinə aparır.**



- ***Qloballaşma*** **inkişaf etmiş ölkələrlə III dünya ölkələri arasında fərqliliyi genişləndirir.**

# Qlobal *inkişaf* *problemləri*



## Ümumkonseptual qruplaşdırma

- *Birinci qrup:* «Cəmiyyət - Cəmiyyət»;
- *İkinci qrup:* «İnsan - Təbiət»;
- *Üçüncü qrup:* «İnsan - Cəmiyyət».

# Qlobal *inkişaf* - I qrup *problem*

1. Nüvə müharibəsi və hərbi xərclər problemi;

2. Yeni beynəlxalq iqtisadi qaydaların formalaşdırılması problemi;

3. Qlobal inkişafın qeyri-bərabərliyi problemi;

4. Qlobal səviyyədə ETİ inkişafının tənzimlənməsi (*humanitar istiqamət*) problemi.



# Qlobal *inkişaf* - II qrup *problem*

1. **Antopogen yaxud qarışıq mənşəli fəlakətlərin (*torpağın erroziyası və s.*) qarşısının alınması problemi;**
2. **Təbii-xammal resurslarından rasional istifadə problemi;**
3. **Demoqrafik problem;**
4. **Ərzaq problemi;**
5. **Boş ərazilərin təsərrüfata optimal daxil edilməsi problemi;**
6. **Energetik böhranın qarşısının alınması problemi;**
7. **Ekoloji problem;**
8. **Dünya okeanının və kosmik məkanın mənimsənilməsi problemi.**



# Qlobal *inkişaf* - III qrup *problem*

**1. ETT-dən antihumanitar istifadə təmayüllərinin aradan qaldırılması problemi;**

**2. Epidemik xəstəliklərin qarşısının alınması problemi;**

**3. Urbanizasiyanın neqativ meyillərinin aradan qaldırılması problemi;**

**4. Savadsızlıq və təhsilin inkişafı problemi;**

**5. İnsan haqları problemi.**



# **Qlobal** inkişaf problemləri:

## *əsas cəhətlər və qarşılıqlı əlaqə*

**Qlobal inkişaf problemlərinin əsas cəhətləri:**

- *təbii-coğrafi;*
- *texniki-iqtisadi;*
- *sosial.*




**Qlobal inkişaf problemləri arasında qarşılıqlı əlaqə:**

- *«üfiqi bağlılıq»;*
- *«şaquli bağlılıq».*

# Qlobal *problemlərin* əlamətləri

- **Onlar ümumi xarakter daşıyır və bütün ölkələri əhatə edirlər;**
- **Onların həlli olmadan bəşəriyyətin həyat məsələsi sual altına düşür;**
- **Problemlərin həlli bəşəriyyətin səylərinin birləşdirilməsini tələb edir;**
- **Onlar təxirəsalınmazdırlar və gələcək nəsillərə ötürülməsi yolverilməzdir.**
- **Onların yaranışı və inkişafı qarşılıqlı əlaqəlidir.**



# Qloballaşmanın *neqativ* təzahürləri

- Qlobal axın neqativ təzahürlərində milli dövlətin inkişafını ləngidir, ictimai şüurda, iqtisadi və mədəniyyət təfəkküründə dəyişikliklərə rəvac verir, cəmiyyət adaptasiyası üçün çətinliklər, yeni sosial-iqtisadi problemlər yaradır
- Qloballaşma istənilən ölkənin milli təsərrüfatına əhəmiyyətli təsir göstərir (*hazırda bu proses ümumdünya məhsulunun 60%-ni verərək 70-80% həcmində xarici ticarət və beynəlxalq maliyyəni əhatə edir*).



- Dünya bazarının qloballaşması daha çox iqtisadi inkişaf etmiş dövlətlərin mənafelərinə xidmət edərək əks qütbdə olan zəif təsərrüfatlı ölkələrin yüksək tərəqqi əldə etməsinə mane olur.
- Qlobal miqyasda ölüm göstəricisi, planet əhalisinin bir milyarddan çoxunun yoxsulluq içərisində yaşaması, pis qidalanaraq aclıq keçirməsidir.
- Bu xüsusiyyətinə rəğmən qloballaşma dünyanın bir sıra regionlarında antiqlobal proteslərlə müşayiət olunaraq milli məhsul istehsalına keyfiyyət və möhkəmlik gətirən vətənpərvər fərdiyyəçilərin simasında məhdudiyyətlərə və təcridə məruz qalır.

# Qloballaşma indeksi



***Qloballaşma indeksi*** – ***reytinq***

(*Globalization Index*) – dünya ölkələrində qloballaşmanın səviyyəsini hesablamaq üçün **A.T.Kearney** (*Andrew Carnegie* ) konsaltinq kompaniyası ilə ABŞ siyasi jurnalı **Foreign Policy** (*Xarici Siyasət*) tərəfidən aparılır.

***Qloballaşma indeksi*** üzrə aparılan tədqiqatın istiqamətini siyasi, iqtisadi, sosial, mədəni proseslərin öyrənilməsi təşkil edir.

***Qloballaşma indeksinin*** hesablanmasında ticarət, xarici portfel və birbaşa investisiyalar, kreditlər, beynəlxalq turizmin həcmi, telefon trafikinin həcmi, şəxsi pul köçürmələri, kompüterlər və internet istifadəçilərinin sayı, siyasi aspektlər – ölkələrin beynəlxalq təşkilatlarda iştirakı və s. əsas götürülür.

# Dünyanın ən çox qloballaşmış 20 ölkəsi

1. İrlandiya
2. Sinqapur
3. İsveçrə
4. Niderland
5. Finlandiya
6. Kanada
7. ABŞ
8. Yeni Zelandiya
9. Avstriya
10. Danimarka
11. İsveç
12. Böyük Britaniya
13. Avstraliya
14. Çexiya
15. Fransa
16. Portuqaliya
17. Norveç
18. Almaniya
19. Sloveniya
20. Malayziya



# **Qloballaşma** *mikrosəviyyədə*

**Mikrosəviyyədə ümumdünyəvi səciyyə daşıyan bir sıra şirkətlər fəaliyyət göstərirlər ki, onların da ticarət markalarına dünyanın əksər ölkələrində rast gəlinir**



**Coca-Cola**

**Ulker**

**Toyota**

**Nokia**

**Nestle**

**Intel**

# Qloballaşmaya *antiqlobal* müqavimət

**Antiqlobal** amillər:

- *demoqrafik situasiyanın dəyişkənliyi;*
- *təbii resursların kalonial istismarının güclənməsi;*
- *regional bərabərsizliyin dərinləşməsi;*
- *iqtisadi intervensiyalar;*
- *konfessional diskriminasiyalar;*
- *milli şüurun renessans və yeni rəqabət mübarizəsi.*



**Dövlətlər qloballaşmanın ölkələrin iqtisadi təhlükəsizliyə qarşı olan meylini azaltmaq məqsədi ilə milli maraqlara uyğun tədbirlər həyata keçirir və daha mühafizəli inkişaf strategiyası işləyib hazırlayırlar.**

# Qlobal

## *inkişaf problemlərinin həlli yolları*

**Qlobal inkişaf problemlərinin həlli yollarında yanaşma:**



- ***texnokratik;***
- ***fəlsəfi;***
- ***Eksiztensial** (mövcudluq)**;***
- ***mədəni yanaşma.***

**Qlobal inkişaf problemləri həllinin baza şərtləri:**

- ***elmi-texniki;***
- ***sosial-siyasi.***

# Əsas anlayışlar

- **Qloballaşma;**
- **Qloballaşma indeksi;**
- **Antiqlobal.**



# T T ə Ə k K r R a A r R

- ***Qloballaşmanın hərəkətverici  gücləri və amilləri;***
- ***Qloballaşmanın  ziddiyətləri;***
- ***Qlobal inkişaf problemləri;***
- ***Qloballaşmanın neqativ təzahürləri;***
- ***Qlobal problemlərin əlamətləri.***



# Mövzunun ədəbiyyat siyahısı


1. Hacızadə E.M. Energetik kompleks yeni islahatlar ərəfəsində, Bakı: Elm, 2000. 257 s.
2. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006. 509 s.
3. Ломакин В.К. Мировая экономика. М.: ЮНИТИ, 2007. 410 с.
4. Хасбулатов, Р. И. Мировая экономика и международные экономические отношения. М.: Гардарики, 2006. 671 с.
5. .Социально-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998, 592 с.
6. Веснин В.Р., Цыпин И.С. Мировая экономика. М.: Проспект, 2009. 248 с.
7. Боброва В.В., Кальвина Ю.И. Мировая экономика: Учебное пособие. Оренбург: ГОУ ОГУ, 2004. 208 с.
8. Кудров В.М. Мировая экономика. М.: БЕК, 2004, 464 с.
9. Татарников Е.А., Максимчук Л.В. Шпаргалка по мировой экономике: Ответы на экзаменационные билеты. М.: Аллель-2000, 2005. 64 с.




# Son

# TƏŞƏKKÜR EDİRİK!

# Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı ş. İstiqlaliyyət 6, ADİU, III mərtəbə,
Otaq No. 000
Tel: (+99412) 492 – 31 – 21
(+99412) 492 – 62 – 64
E-mail: elshan@mail.az
Veb sayt www.hajizadeh@narod.ru

